QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## "ASAN xidmət": son 22 ilin reallıqlarından biri




5


SƏS

№ 240 (7408)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

27 dekabr 2025-ci il.
Qiymәti 60 qәpik


# 2025-ci il - Zəfərlərlə dolu idman ili!




2

*Prezident İlham Əliyev 2025-ci ilin idman yekunlarına həsr olunan mərasimdə iştirak edib*

# Reallıqdan uzaq olan FORMAL MÜNASİBƏTLƏR



*Ermənistan faktiki olaraq guya "hamı ilə" strateji sənədlər imzalamaqdadır və bu imzalananların həqiqətən də "strateji tərəfdaşlıq" olduğuna erməni cəmiyyətini inandırmağa çalışılır. Guya həmin ölkənin artıq Avropa İttifaqı ilə, Almaniya ilə strateji tərəfdaşlıq sənədləri var və hələ əvvəldən də ABŞ, Çin və İrandan da guya daha çox şeylər gözlənilirmiş.*

3

## "Azal"a məxsus təyyarənin bilərəkdən vurulduğu təsdiqləndi



6

## Qərbi Azərbaycana qayıdış günü uzaqda deyil



7

## Mənzil qeydiyyatına düşmək prosesi necə aparılır ?



8

## Virus daha geniş miqyasda yayılacaq - XƏBƏRDARLIQ



8

## Biomüxtəliflik yoxdursa, həyat yoxdur



7






# 2025-ci il - Zəfərlərlə dolu idman ili!

## *Prezident İlham Əliyev 2025-ci ilin idman yekunlarına həsr olunan mərasimdə iştirak edib*










***Dekabrın 26-da 2025-ci ilin idman yekunlarına həsr olunan mərasim keçirilib. Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyev mərasimdə iştirak edib. Dövlətimizin başçısı tədbirdə çıxış edib. Prezident İlham Əliyev öz çıxışında qeyd edib ki, bu il idmançılarımız tərəfindən qazanılan medalların sayı rekord həddə çatıb. Dövlətimizin başçısı qeyd edib ki, beynəlxalq yarışlarda idmançılarımız tərəfindən 2000-dən çox medal, təqribən 600-dən çox qızıl medal qazanılıb. Bu, bir daha onu göstərir ki, idmanın inkişafı Azərbaycanda uğurla gedir. Keçən illə müqayisədə medalların sayı daha çoxdur və bu, yəqin ki, təbiidir. Çünki idmanın inkişafına göstərilən diqqət, aparılan dövlət siyasəti, əlbəttə ki, ildən-ilə daha yaxşı nəticələrə gətirib çıxarır.***

"Azərbaycanda idmanın inkişafı dövlət siyasətidir və dövlət xətti ilə bir çox proqramlar icra edilmişdir. İdman infrastrukturu demək olar ki, sıfırdan qurulmuşdur və bu gün ən yüksək səviyyədədir. Bölgələrdə idmanla məşğul olmaq üçün bütün şərait var. Bu il iki Olimpiya İdman Kompleksinin tikintisi başa çatmışdır - Gəncədə və Yevlaxda. Beləliklə, bölgələrdə Olimpiya İdman komplekslərinin sayı 46-ya çatıb. Əlbəttə ki, bütün bunlar, eyni zamanda, düzgün aparılan siyasət idmanın inkişafını şərtləndirir və gəncləri idmanla məşğul olmağa daha da həvəsləndirir. Bu da çox önəmlidir. Çünki sağlam gənc nəsil yetişməsə, idman uğurlarını əldə etmək mümkün olmayacaq. Sağlam gənc nəsil, ilk növbədə, ölkənin gələcək inkişafı üçün lazımdır ki, Azərbaycan əhalisi, Azərbaycan vətəndaşları fiziki cəhətdən sağlam olsunlar. Eyni zamanda, uşaqlıqdan idmana göstərilən maraq əlbəttə ki, gələcəkdə idman uğurlarına yol açır.

Bizim siyasətimizin əsas istiqamətlərindən biri də gəncləri sağlam ruhda tərbiyə etməkdir, vətənpərvərlik ruhunda tərbiyə etməkdir ki, gənclər Vətən sevgisi ilə böyüsünlər, tərbiyə alsınlar və beləliklə, ölkəmizin inkişafı daimi olsun, əbədi olsun. Əlbəttə ki, burada əsas amil cəmiyyətdə mövcud olan ab-havadır. Bu da çox müsbətdir. Bizim xalqımız böyük dərəcədə həmrəylik, vətənpərvərlik göstərir və son illərin hadisələri bunu bir daha təsdiqləyir. Gənclərin fiziki hazırlığı, mənəvi saflığı vəhdət təşkil etməlidir. Məhz o halda ölkə uğurla inkişaf edə bilər. İdmanın isə gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsində çox böyük önəmi var."

Dövlətimizin başçısıq eyd edib ki, hər dəfə bizim idmançılarımız Dövlət Bayrağını beynəlxalq yarışlarda qaldıranda əlbəttə ki, hər birimiz qürur hissi keçiririk. Son 5 il ərzində bizim bayrağımız qalib ölkənin bayrağı kimi beynəlxalq arenalarda qaldırılır.

"Əminəm ki, idmançılar da beynəlxalq yarışlarda iştirak edən zaman bunu hiss edirlər. Ölkəmizə, xalqımıza olan münasibəti hiss edirlər və idman meydançalarına, idman arenalarına çıxarkən, yəqin ki, təbii olaraq qürur hissi ilə çıxırlar. Eyni zamanda, bizim 5 il bundan əvvəl əldə etdiyimiz şanlı Qələbə idmançıların məsuliyyətini də böyük dərəcədə artırır. Çünki onlar müzəffər xalqın nümayəndələri kimi yarışlarda iştirak edirlər. Təbii ki, bundan sonrakı illərdə bu siyasət davam etdiriləcək. İdmanla məşğul olan bütün qurumlar çox sıx əlaqəli şəkildə fəaliyyət göstərirlər. Azərbaycanda ənənəvi olaraq bir çox beynəlxalq idman yarışları keçirilir. Bəziləri ənənəvi xarakter alır, bəziləri xüsusilə çox böyük beynəlxalq idman yarışları ilk dəfə idi ki, Azərbaycanda keçirilmişdir. Bu ilin ölkəmizdə keçirilmiş əsas idman yarışı təbii ki, MDB ölkələrinin üçüncü Oyunları olmuşdur. Oyunlar çox yüksək səviyyədə keçirilmişdir.

Ənənəvi olaraq Formula 1 yarışı təbii ki, bu il də keçirilmişdir və bu yarış ölkəmizin dünyaya təqdimatında xüsusi rol oynamışdır. Təkcə onu demək kifayətdir ki, birinci Formula 1 yarışından sonra ölkəmizə gələn xarici turistlərin sayı 20 faiz artmışdır və ondan sonra da artım davam edirdi, COVID-ə qədər. Sonra təbii ki, aşağı düşdü. İndi yenə də bərpa edilir və əminəm ki, gələn il daha çox xarici qonaq ölkəmizə gələcək, o cümlədən beynəlxalq idman yarışlarını izləmək üçün. Bu il keçirilmiş Formula 1 yarışının özəlliyi onda idi ki, bütün biletlər əvvəlcədən satılmışdı və hətta əlavə tribunaların quraşdırılması da nəzərdə tutulmuşdu. Halbuki şəhər yarışı olduğu üçün burada daha böyük sayda tribunaların quraşdırılması çox çətindir. Amma buna baxmayaraq, 20 min insan canlı olaraq bu yarışı izləyib.

Ölkəmizdə yüzlərlə idman, beynəlxalq idman yarışları keçirilmişdir və gələn il də yarışların keçirilməsi gözlənilir. Xüsusilə mən ölkəmizdə ilk dəfə olaraq keçiriləcək Xizək üzrə Dünya Kubokunu qeyd etmək istərdim. Çünki bu, ilk dəfə olaraq keçiriləcək tədbirdir və ilk ildən dünya kuboku səviyyəsində Qusarda, Şahdağ Xizək Kurortunda keçiriləcək. Bu da Azərbaycanı və Şahdağı beynəlxalq xizək idmanının cədvəlinə salmış olur. Burada da ölkələrin sayı kifayət qədər məhduddur və Azərbaycanın burada da olması, qış idmanı növündə Dünya Kubokunun keçirilməsi əlbəttə ki, böyük hadisədir.

Əlbəttə ki, bu il daha bir önəmli hadisə baş vermişdir. Bakı şəhəri "Dünyanın İdman Paytaxtı" seçilmişdir və bu da çox böyük hadisədir, bizim üçün böyük şərəfdir. Eyni zamanda, Azərbaycanda idmanla bağlı görülən işlərə verilən qiymətdir. Mən əminəm ki, bu şərəfli adı biz ləyaqətlə daşıyacağıq.

Əlbəttə, idmançıların və idman mütəxəssislərinin mükafatlandırılması da qeyd etdiyim kimi, bir ənənəyə çevrilib. Bu, çox gözəl ənənədir, artıq 30 ilə yaxındır ki, davam edir və hər şey ədalətli olmalıdır. Azərbaycanın idman şöhrətini ucaldan insanlar əlbəttə ki, dövlət tərəfindən qiymətləndirilməlidir və onların fəaliyyətinə layiqli münasibət göstərilməlidir. Mən sizi qarşıdan gələn Yeni il bayramı və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə təbrik edirəm. Sizə yeni uğurlar, qələbələr arzulayıram."

Sonra Azərbaycanda idmanın inkişafında xidmətləri olan idmançıların və idman mütəxəssislərinin mükafatlandırılması mərasimi oldu. Prezident İlham Əliyev Azərbaycanda idmanın inkişafında xüsusi xidmətlərinə və yüksək peşəkarlığına görə Mövlud Mirəliyevə, Ələkbər İmaməliyevə, Zöhrab Gözəlbəyliyə və İlahə Qədimovaya "Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adlarının vəsiqələrini təqdim etdi.

Ölkəmizdə idmanın inkişafında xidmətlərinə görə Elmira Aslanova, Vəfa Musayeva, Nurəddin Rəcəbov, Eduard Məmmədov, Azər Məhərrəmov, Yaqub Abdullayev, Cahangir Ağarəhimov, Fikrət Hüseynov, Cahangir Bayramov və Coşqun Əliyev "Tərəqqi" medalları ilə təltif olundular.

Dövlətimizin başçısı 2025-ci ildə yüksək nailiyyətlər qazanmış bir qrup idmançıya və idman mütəxəssisinə - Şəmsi Səfərliyə, Böyükxanım Astanovaya, Morteza Validarviyə, Mehran Həmidzadəyə, Malik Həsənova, İmamverdi Məmmədova, Ramil Vəliyevə, Tofiq Əliyevə, Oqtay Abdullayevə, Nurəddin Məmmədova, Solmaz Adilovaya, Ülvi Qənizadəyə, Murad Məmmədova, Ramil Cəfərova, Aygül Abdullayevaya, Yelizaveta Rubana, Xəyyam Orucova, Elnur İbrahimə, Taleh Nağızadəyə, Nərmin Kazımovaya və Fərid Tağızadəyə yeni mənzillərin orderlərini təqdim etdi. Azərbaycanda idmanın inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Tərlan Həsənova, Asim Xudiyevə və Qərib Əliyevə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü veriləcək. Sonra xatirə şəkli çəkdirilib, Prezident İlham Əliyev idmançılarla söhbət edib.



# Reallıqdan uzaq olan FORMAL MÜNASİBƏTLƏR

***Ermənistan faktiki olaraq guya "hamı ilə" strateji sənədlər imzalamaqdadır və bu imzalananların həqiqətən də "strateji tərəfdaşlıq" olduğuna erməni cəmiyyətini inandırmağa çalışılır. Guya həmin ölkənin artıq Avropa İttifaqı ilə, Almaniya ilə strateji tərəfdaşlıq sənədləri var və hələ əvvəldən də ABŞ, Çin və İrandan da guya daha çox şeylər gözlənilirmiş. Amma ortada olan reallıqlar tamamilə fərqlidir və belə görünür ki, Ermənistan tərəfindən qondarılan "strateji tərəfdaşlıq" termini qlobal miqyasda bir qədər formal xarakter daşıyır. Daha dəqiq desək, Ermənistanın uydurduğu formal münasibətlər reallıqdan tamamilə uzaqdır.***

Böyük Britaniya, Hollandiya kimi ölkələrlə strateji tərəfdaşlıqdan dəm vuranlar bunu reallıqda göstərə bilmirlər. Hələ 10 il, 15 il əvvəl "strateji tərəfdaşlıq" deyilənin Ermənistanın indiki mövqeyi ilə eyni olduğunu söyləmək qətiyyən mümkün deyil. Məsələ burasındadır ki, haqqında qeyd olunan "strateji tərəfdaşlıq" mövzusu Ermənistan hökumətinin məhz özünün hansısa güclü tərəfini göstərmək, daha doğrusu, nümayiş etdirmək cəhdi kimi görünür. Həmçinin bunun qismən də seçkiqabağı hadisələrlə bağlı olduğu istisna edilmir. Bəlkə də Ermənistan hökuməti erməni cəmiyyəti, daxili auditoriya qarşısında bir şəkildə hesabat verməli olduğunu düşünür və guya həqiqətən də siyasətinin çoxşaxəli olduğunu göstərməyə çalışır. Göstərməyə çalışır ki, guya özlərinin 10-dan çox, bəzən də hətta 20-dən çox ölkə ilə "strateji tərəfdaşlığı" var və bunun qətiyyən inandırıcı olmadığı nəzərə belə alınmır.

Çox uzağa getməyə ehtiyac yoxdur və elə ən yaxın Gürcüstanı nümunə üçün götürdükdə, münasibətlərin formal olduğu öz təsdiqini tapır. Uydurduqları "strateji tərəfdaşlıq" təxminən iki il əvvəl, daha dəqiq desək, 2024-cü ilin yanvarında imzalanıb və indi, hal-hazırda, 2025-ci ilin dekabr ayında bu münasibətlərin reallıqdan tamamilə uzaq olduğu aydın şəkildə ortadadadır. İstər iqtisadi, istər siyasi, istərsə də hərbi sahədə Ermənistanla Gürcüstan arasında münasibətlərdə kəmiyyət dəyişiklikləri və ya kəmiyyət artımının olduğunu kimsə iddia belə edə bilməz. Ona görə də cəsarətlə deyə bilərik ki, ümumiyyətlə, bu qondarılan "strateji sənədlər" məzmundan çox forma kimi görünür və reallıqdan çox-çox uzaqdır.

Əsl reallıq odur ki, münasibətlərin yaxşılaşması bir tərəfə, üstəlik, Ermənistanla Gürcüstanın problemləri belə yaranıb. Hal-hazırda əvvəla, erməni konyakının ixracında, bundan başqa həm də propanın idxalında belə problemlər yaranıb. Amma bu vaxta qədər daxili auditoriyaya çatdırılan o idi ki, guya ermənilərin gürcülərlə təkcə adi tərəfdaşlığı yox, xüsusən də "strateji tərəfdaşlığı" var imiş. Görünənlərə nəzər saldıqda isə reallığın belə olmadığı qənaətinə gəlmək heç də çətin deyil. Təbii ki, erməni cəmiyyətində də bu reallıqları görənlər də var və buna görə də həmin o "strateji tərəfdaşlıq" uydurmasına heç də hayların böyük əksəriyyəti inanmır.

Eyni fikirləri Hollandiya haqqında da söyləmək mümkündür. Yəqin ki, "strateji tərəfdaşlıq" var deyənlər düz bir il ərzində "heç bir fərq" olmadığını özləri də hamıdan yaxşı bilirlər. Bilmirlərmi ki, heç bir kəmiyyət dəyişikliyi belə olmayıb? Yaxşı bilirlər. Yaxşı bilirlər ki, Hollandiya sərmayəsi, yaxud Hollandiyaya ixrac və ya Hollandiyadan idxal qətiyyən artmayıb. Əgər nəinki keyfiyyət, hansısa kəmiyyət dəyişikliklərindən belə danışmaq mümkün deyilsə, hansı "strateji tərəfdaşlıq"dan dəm vurmaq olar? Bütün bu sadalananlara yaxşı halda, formal münasibətlər deyilsə, zənnimizcə daha doğru və münasib olar...

Yaxud, daha bir nümunə olaraq, məsələn, Çinlə də uydurulan "Strateji tərəfdaşlıq" məsələsini də nəzərdən keçirdikdə görürük ki, münasibətlərdə zərrə qədər də dəyişiklik yoxdur. Bəli, dörd ay əvvəl hansısa "strateji tərəfdaşlıq" imzalandığı və Çinin artıq Ermənistan üçün guya ikinci ən böyük ticarət tərəfdaşı olduğu barədə uydurmalar dövriyyəyə buraxıldı. Hətta, utanmadan, Çinin məhz 2025-ci ildə Ermənistan üçün ikinci ən böyük ticarət tərəfdaşı olaraq qalacağı da iddia olundu. Amma haylar reallıqda qətiyyən Çin sərmayəsini öz ölkələrində görmürlər. Hətta Ermənistanda hansısa ilkin layihələrin olduğunu da müşahidə edən yoxdur. Hansısa Çin şirkətinin, məsələn, bir milyard, yaxud, yarım milyard dollar sərmayə qoyduğunu və Ermənistanda fabrik açdığını kimsə deyə bilməz, çünki belə bir hadisə baş verməyib. Deməli, bu da formaldır...

Hazırda Ermənistana məxsus mətbuat səhifələrində qeyd olunur ki, bu yaxınlarda Brüsseldə Ermənistan və Aİ, daha sonra isə Almaniya arasında strateji tərəfdaşlıq gündəliyi imzalanıb. Brüssel rəsmiləri Rusiyanı hibrid hücumlar və informasiya müharibəsi başlatmaqda ittiham etsə də, Ermənistan tərəfi öz bəyanatlarında sən demə, guya daha "təmkinli" olub. Həmçinin, qeyd olunur ki, Paşinyan Berlin səfərindən sonra Moskvaya da gedib. Sual da olunur ki, görəsən, bu nəyi göstərir? Bu, guya ki, Ermənistanın xarici siyasətinin rasionallaşdırılmasından, daha böyük praqmatizmdən xəbər verirmiş. Əslində, reallıq tamamilə başqa və eyni zamanda fərqlidir...

İlk növbədə, Avropa İttifaqı ilə hansısa yeni sənədin guya imzalanması diqqəti cəlb edir. Belə qeyd olunur ki, yeni sənədin imzalanması ilə bağlı danışıqlar əslində, 2024-cü ilin əvvəlində başlayıb və həmin sənədin adı sadəcə olaraq "Yeni Tərəfdaşlıq Gündəliyi" olub. Məsələ burasındadır ki, "strateji" sözü cəmi bir neçə ay əvvəl ortaya çıxıb. Belə görünür ki, bu, yəni, "strateji" sözü Ermənistanın uydurması olub, çünki artıq sənəd demək olar ki, çoxdan razılaşdırılmış idi. Göründüyü kimi, Ermənistan tərəfi sonradan düşünüb ki, niyə də bu, "Strateji Tərəfdaşlıq Gündəliyi" və ya "Strateji Tərəfdaşlıq" adlandırılmasın axı? Deməli, "strateji" sözü sözün əsl mənasında bir neçə ay əvvəl, sənədin özü az qala razılaşdırıldığı vaxt əlavə edilib. Bir sözlə, yenə də formal olaraq...

Baş nazir Nikol Paşinyanın Almaniyaya səfəri bu məqamda diqqəti cəlb edir. Xüsusən də haylar üçün diqqət cəlb edən məqam sayılır. Elə buna görə də onların özləri üçün də bir çox suallar doğurur. Məsələ burasındadır ki, Almaniya özü bir ölkə olaraq, heç də tənəzzüldən yaxa qurtara bilmir. Maraqlıdır, Almaniya ilə bağlı nə baş verir? Reallıq budandan ibarətdir ki, almanlar üç ildir ki, nisbətən ucuz qiymətə Rusiya enerjisini artıq ala bilmirlər. Görünən odur ki, Almaniya iqtisadiyyatı özü də son üç ildə tənəzzülə uğrayıb. Almaniya ixrac iqtisadiyyatına sahibdir və hazırda bu ölkənin ixracla bağlı böyük problemləri var. Çünki Almaniya malları bahalaşır, üstəlik Trampın tarif siyasəti də öz "təsirini" göstərir. Yenə də düşündürücü olan müəmmalı məqamlar var. Hər halda, həmin düşündürücü məqamları erməni cəmiyyəti daha həssas şəkildə nəzərə almalıdır. Nəzərə almalıdır ki, Ermənistanın yox dərəcəsində olan iqtisadiyyatını tamamilə məhv etmək kimi bir təhlükə qarşısındadır. Bununla belə, Ermənistan hökuməti başa düşür ki, iqtisadiyyat tamamilə məhv olarsa, seçkilərdə qalib gəlmək barədə düşünməsi də mümkün deyil. Hər halda, formal münasibətlər deyil, real, düşünülmüş və səmərəli münasibətlər qurmaq, hansısa qondarma "strateji tərəfdaşlıq" uydurmalarındansa, qonşu ölkələrlə münasibətləri normallaşdırmaq, sülh şəraitində əməkdaşlıq etmək, region üçün aktual olan layihələrdə iştirak etmək daha sərfəli, daha səmərəli və daha uğurlu olar. Heç şübhəsiz ki, bu yanaşma belə reallıqdan uzaq olan formal münasibətlərdən daha doğru yanaşmadır...

***İnam Hacıyev***

# Ədalətin bərpası: Ağdam quruculuq yolunda

***27 il sonra Ağdam işğaldan azad olundu və Azərbaycan öz haqqına qovuşdu. Bu gün Ağdam yeni günün yaşayır və işğaldan azad olunan Ağdamımızda abadlıq-quruculuq işləri həyata keçirilir. 2020 ci ilin noyabrın 20-də şəhərin erməni işğalçılarından təmizlənməsindən 5 ildən arıq zaman ötür. Azərbaycanın Vətən müharibəsində qazandığı parlaq qələbə nəticəsində Ağdam bir güllə atılmadan düşmən tapdağından azad olunub.***



Belə ki, 2020-ci ilin sentyabrın 27-dən başlayaraq Azərbaycan Ordusu ölkəmizin əzəli torpaqlarının azadlığı uğrunda genişmiqyaslı əks-hücum əməliyyatlarına başlayıb. Hərbi əməliyyatlar zamanı uzun illər işğal altında olan torpaqlar Azərbaycan Silahlı Qüvvələri tərəfindən kəndbəkənd, qarışbaqarış azad edilib. Ağdam rayonunun işğaldan azad olunması 2020-ci ilin noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın nəticəsində baş tutdu. Noyabrın 10-da Prezident İlham Əliyevin xalqa məlum




## Prezident İlham Əliyev: "Bu gün Ağdam rayonunda artıq həyat bərpa edilir"

müraciətində qeyd etdiyi kimi, bu bəyanatın imzalanmasının səbəbi noyabrın 9-da Dövlət Bayrağı Günündə bizim növbəti şanlı hərbi qələbəmiz olub:"Çünki noyabrın 9-da 72 yaşayış məntəqəsini Azərbaycan Ordusu işğalçılardan azad edib. Şuşanın azad edilməsi, noyabrın 9-da 72 yaşayış məntəqəsinin azad edilməsi və sentyabrın 27-dən bu günə qədər 300-ə yaxın yaşayış məntəqəsinin azad edilməsi ilə Ermənistan ordusunun belini qırmışıq. Paşinyan məcbur olub bu bəyanata öz imzasını atır. Amma çox miskin, çox acınacaqlı durumda. Mən isə böyük fəxarət və sevinc hissi ilə bu bəyanata öz imzamı atmışam.

Çünki bu bəyanat uzun illər davam edn işğala son qoyur. Bu bəyanat imkan verir ki, hələ də işğal altında olan digər rayonlarımızı - Ağdam, Laçın, Kəlbəcər rayonlarını qan tökülmədən qaytaraq". Bəli, beləliklə, 27 ildən sonra günəş şüaları ilə nurlanmış ağ ev Ağdam Azərbaycana qaytarıldı. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə məhəl qoymayan Ermənistan öz işğalçı siyasətini davam etdirsə də Azərbaycanın güclü ordusu və Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi ilə torpaqlarımız işğaldan azad edildi. 27 il Ağdam şəhəri də daxil olmaqla ərazisinin böyük bir hissəsi erməni işğalı altında olan ərazimiz, əzəli torpaqlarımız sahiblərinə qaytarıldı. "Bütün binalar, bütün kəndlərdəki evlər, ictimai binalar ermənilər tərəfindən dağıdılıb. Bu, misli görünməmiş barbarlıqdır, vandallıqdır, vəhşilikdir. Bu, erməni faşizminin eybəcər sifətinin göstəricisidir. Bütün dünya bunu görməlidir və görür. Biz bundan sonra da xarici vətəndaşları buraya dəvət edəcəyik. Onlar gələcəklər və erməni vəhşiliyi nədir onu görəcəklər"- deyə Prezident çıxışlarının birində bildirmişdir.

### "Bugünkü Azərbaycan bütün tarix boyunca ən qüdrətli Azərbaycandır"

Ermənilər nə qədər vandallıq əməlləri törətsələr də, xalqımıza məxsus dini-mədəniyyət abidələrini, yaşayış evlərini, infrastrukuru dağıtmış olsalar da, tarixi həqiqət qələbə çaldı. Bu gün nəinki, Ağdamda eləcə də işğaldan azad olunan digər ərazilərdə böyük abadlıq-quruculuq işləri aparılır. Azərbaycan Prezident İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, "Bu gün misli görünməmiş bərpa işləri aparılır. Nəyin hesabına? Məhz hazırlıq hesabına. Ona görə biz güclü dövlət yaratmışıq, Mən son illərdə dəfələrlə demişdim və bax, həyat mənim sözümü təsdiqlədi ki, bugünkü Azərbaycan bütün tarix boyunca ən qüdrətli Azərbaycandır və çoxəsrlik tarixində heç vaxt Azərbaycan indiki qədər güclü olmamışdır".

### "Bu gün Ağdam şəhərində artıq insanlar yerləşir və bu yaşayış məhəlləsindəki 1268 mənzildə ağdamlılar yerləşəcək"

Bu gün ermənilərin viran qoyduqları ərazidə irimiqyaslı layihələr icra olunur. Ağdam şəhərinin təsdiq edilmiş Baş planına uyğun olaraq, əhalinin səmərəli və yüksək həyat səviyyəsini təmin etmək məqsədilə müasir tələblərə cavab verəcək yaşayış məhəllələrinin salınması ilə yanaşı, burada işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonasının yaradılması hədəfinə uyğun olaraq, məhəllədəki binaların enerji təchizatında alternativ enerji mənbələrindən istifadə üzrə konseptual həllər işlənmişdir. Ölkə başçısının gördüyü işlər, həyata keçirdiyi bütün layihə və proqramlar, ilk öncə milli maraqları özündə əks etdirir.

Prezident İlham Əliyevin Ağdama növbəti səfəri buranın uğurlu gələcəyindən xəbər verir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 24-də Ağdam şəhərində 2-ci yaşayış kompleksinin açılışında iştirak edib və buraya köçən sakinlərlə görüşüblər. Ərazisi 13 hektardan çox olan kompleksdə 11 məhəllə var. Burada 60 bina inşa edilib. Kompleksdə 114-ü birotaqlı, 464-ü ikiotaqlı, 536-sı üçotaqlı, 154-ü dördotaqlı olmaqla ümumilikdə 1268 mənzil var. Dekabrda buraya 104 ailənin (426 nəfər) köçürülməsi nəzərdə tutulur. 2026-cı ilin yanvar-fevral aylarında isə daha 1164 ailə (4772 nəfər) köçürüləcək.

Binalar daimi su, elektrik və sürətli internet xətləri, mənzillər isə istilik və isti su ilə təmin edilib. Kompleksin ərazisində genişmiqyaslı abadlıq-quruculuq işləri görülüb, uzunluğu 5 kilometrə yaxın olan daxili yollar çəkilib, idman və uşaq oyun meydançaları, velosiped zolağı, yerüstü və 1218 yerlik yeraltı avtomobil dayanacaqları yaradılıb. Qarabağın və Şərqi Zəngəzurun bərpasında əsas prinsip müasir standartlara uyğun məntəqələrin qurulması ilə keçmiş məcburi köçkünlərin rahat yaşayışını təmin etməkdən ibarətdir. Bununla yanaşı, sosial infrastrukturun yaradılması xüsusilə diqqət mərkəzində saxlanılır. İşğaldan azad edilmiş ərazilərimizdə müasir məktəblər, uşaq bağçaları, tibb müəssisələri tikilir, məşğulluğun təmin olunması üçün sənaye parkları, müxtəlif istehsal müəssisələri, xidmət sahələri yaradılır. Bütün bu tədbirlər Qarabağın və Şərqi Zəngəzurun qısa müddətdə dirçəldilməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və bölgənin sürətli inkişafına xidmət edir.

"Bu gün Ağdam rayonunda artıq həyat bərpa edilir" Bu barədə Prezident İlham Əliyev Ağdam şəhərinə köçən sakinlərlə görüşündə bildirib.

Orada indi bir neçə min insan yaşadığını və bu köç prosesinin davam etdiyini söyləyən dövlətimizin başçısı vurğulayıb: "Bu gün Ağdam şəhərində artıq insanlar yerləşir və bu yaşayış məhəlləsindəki 1268 mənzildə ağdamlılar yerləşəcək".

Bu gün Ağdam şəhərinin tarixində çox əlamətdar bir gün olduğunu bildirən dövlət başçısı qeyd edib ki, uzun fasilədən sonra ağdamlılar öz doğma şəhərinə qayıdırlar: "Əminəm ki, burada siz rahat yaşayacaqsınız, əmin-amanlıq şəraitində yaşayacaqsınız. Siz buna layiqsiniz. Uzun illər köçkün həyatını yaşamış insanlar üçün bu gün Ağdam şəhərində və işğaldan azad edilmiş bütün başqa ərazilərdə yeni, müasir şəhərlər, kəndlər, qəsəbələr salınır və artıq "Böyük Qayıdış" Proqramının əyani təzahürlərini hər kəs görə bilir.

İşğal dövründə Ağdam demək olar ki, urbisidə məruz qalmışdır. Yəni şəhər Ermənistan dövləti tərəfindən tamamilə dağıdılmışdır. Bu, Ermənistan dövlətinin məqsədyönlü siyasəti, bizə qarşı olan düşmənçiliyin bariz nümunəsi idi. Məqsəd də tam aydın idi. Birincisi, talançılıq. Çünki bütün binaların daşları bir-bir sökülərək talan edilmişdir, müxtəlif yerlərdə, Ermənistan ərazisində satılmışdır. Digər tərəfdən, Ermənistan dövləti bu bölgələrdə Azərbaycan xalqının tarixi irsini tamamilə silmək istəyirdi. Üçüncü məqsəd isə bu şəhəri elə vəziyyətə salmaq idi ki, artıq burada yaşayış mümkün olmasın, azərbaycanlılar heç vaxt buraya qayıtmaq haqqında düşünməsinlər. Ancaq səhv etdilər. Biz, xalqımız bütün bu əzablı illər ərzində bir amalla yaşamışıq ki, öz doğma dədə-baba torpaqlarımıza qayıdaq və qayıdandan sonra bu torpaqları, bu şəhərləri, kəndləri bərpa edək. Azərbaycan xalqı heç vaxt işğalla barışmamışdır.

Artıq Ağdamın üç kənddə insanlar yaşayır. Mən bu kəndlərin yenidən istifadəyə verilməsi mərasimlərində iştirak etmişəm - Kəngərli, Sarıcalı, Xıdırlı. Orada indi bir neçə min insan yaşayır və bu köç prosesi davam edir. Bu gün Ağdam şəhərində artıq insanlar yerləşir və bu yaşayış məhəlləsindəki 1268 mənzildə ağdamlılar yerləşəcək. Daha iki məhəllədə inşaat işləri gedir. Təkcə bu məhəllədə 60 çoxmərtəbəli bina var. Bütün şərait yaradılıb, infrastruktur qurulub və burada rahat yaşamaq üçün bütün imkanlar var. Təbii ki, Ağdam şəhərinin tam istədiyimiz kimi qurulması zaman tələb edir", - deyə Prezident bildirib.

### Adamın tarixində yeni səhifə

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ağdam rayonuna səfərləri və burada yeni müəssisələrin təməllərinin qoyulması tezliklə Ağdamın müasir bir məkana çevriləcəyindən və sakinlərinin əzəli torpaqlarına qayıdacağından xəbər verir. Səfərlər çərçivəsində dövlətimizin başçısının görülən işlərlə tanışlığı və yeni təməllərin qoyulması, tapşırıq və göstərişlərin verilməsi Ağdamın tezliklə qurulmasının göstəricisidir.

Ağdamda aparılan abadlıq-quruculuq işləri çərçivəsində şəhərin daxili yollarında aparılan işləri də qeyd etməliyik. Ağdam şəhərinin Baş planına əsasən şəhərin daxili yollarının ümumi uzunluğu 189,7 kilometr təşkil edir. Şəhərin daxili yol və kommunikasiya şəbəkəsinin təməli 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulub. Ağdam şəhərinin daxili yollarının 6 tip en kəsiyinə uyğun tikilməsi nəzərdə tutulub. Hər bir tip en kəsiyinin əhəmiyyətinə uyğun olaraq, hərəkət zolaqlarının sayı 2-8 ədəd, yaşıllıq zolağının eni 1,5-3 metr, velosiped zolağının eni 1,5 metr, piyada zolağının eni isə 4-6 metr təşkil edir. Bu yolların birinci mərhələdə uzunluğu 58,7 kilometr təşkil edən hissəsi müsbət ekspertiza rəyi alıb.

Magistral şəhər yollarının uzunluğu 17,5 kilometrdir. Eni 55-60 metr təşkil edəcək bu yol 6-8 hərəkət zolağından ibarət olacaq. Hazırda Ağdamda bərpa-yenidənqurma işləri aparılır, yeni infrastruktur qurulur, şəhər dirçəldilir. Belə ki, Vətən müharibəsindən sonra rayon ərazisində infrastrukturun bərpasına və yenidənqurma işlərinə başlanılıb.

**Nəzakət ƏLƏDDİNQIZI**

# “ASAN xidmət”: son 22 ilin reallıqlarından biri

***Bu, bir faktdır ki, son 22 il müstəqil Azərbaycanın tarixində şanlı bir səhifə açıb. Bu şanlı səhifələrə çox ilklər həkk olunub. Bunlardan biri də “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 13 iyul 2012-ci tarixli Fərmanı ilə yaradılan “ASAN xidmət” mərkəzləridir. O “ASAN xidmət” mərkəzləri ki, dövlətimizin başçısının uğurlu layihəsidir, artıq 13 ildir fəaliyyət göstərir və insanlar bu xidmətdən çox razıdır.***

Bakıda pilot layihə olaraq ilk “ASAN xidmət” mərkəzinin açılışı 29 dekabr 2012-ci ildə olub. Mərkəz doqquz dövlət orqanının təklif etdiyi 23 xidməti həyata keçirməklə, 15 yanvar tarixində fəaliyyətə başlayıb. Yaradılmasından ötən bir il ərzində Sumqayıtda, Gəncədə də “ASAN xidmət” mərkəzləri yaradılıb, Bakıda bu mərkəzlərin sayı 3-ə çatdırılıb. Artıq 2014-cü ilin əvvəlində “ASAN xidmət” mərkəzlərindən istifadə edən vətəndaşların sayı 1 milyona çatıb.

2014-cü il mayın 7-də Bakıda sayca dördüncü, dekabr ayında isə ölkədə yeddinci olaraq Sabirabadda “ASAN xidmət” mərkəzinin açılışı olub. 2015-ci ildə Bərdədə, həmin ilin yayında, iyulun 14-də Azərbaycanda hələlik 5 saylı Bakı “ASAN xidmət” mərkəzi açılıb. 2016-cı ildə Masallı və Qəbələ, 2017-ci ildə Quba, 2018-ci ildə isə Mingəçevir, İmişli və Şəki, 2019-cu ildə Şamaxı, 2020-ci ildə Kürdəmir, Tovuz, Ağcabədi və Balakən rayon sakinlərinin də həyatına bu asanlıq daxil olub və onlar da digər bölgələrdə olan insanlar kimi vaxt və vəsait itkisinə son qoyublar.

2021-ci ildə 6 saylı Bakı “ASAN xidmət” mərkəzi, 2022-ci ildə 2 saylı Gəncə regional “ASAN xidmət” mərkəzi və 7 saylı Bakı “ASAN xidmət” mərkəzi fəaliyyətə başlayıb, 2023-cü ildə isə Naxçıvan Muxtar Respublikası və Salyan rayon sakinlərinin çoxdankı arzuları reallaşıb və onların da həyatı “ASAN xidmət”lə asanlaşıb.

2024-cü il yanvar ayının 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Lənkəran regional “ASAN xidmət” mərkəzi istifadəyə verilib. Bu mərkəz Lənkəran, Astara, Lerik və Yardımlı rayonlarında qeydiyyatda olan təxminən 500 min vətəndaşa xidmət göstərir. Ötən il iyul ayında isə Şuşada “ASAN” xidmət mərkəzi istifadəyə verilib. Hazırda 28 “ASAN xidmət” mərkəzi mövcuddur. Onlardan 7-si paytaxt Bakıda, digər 21-i isə regional mərkəzlər olmaqla,Sumqayıt, Gəncə, Sabirabad, Bərdə, Qəbələ, Quba, Masallı, Mingəçevir, İmişli, Şəki, Şamaxı, Kürdəmir, Tovuz, Ağcabədi, Balakən, Salyan, Naxçıvan və Lənkəran və Şuşadadır. İşğaldan azad edilmiş ərazilərdə də “ASAN xidmət” mərkəzlərinin yaradılması nəzərdə tutulub. Belə ki, Ağdam, Laçın və Cəbrayıl rayonlarında mərkəzlərin qurulması məqsədəuyğun hesab edilib. Şuşa şəhərində isə “ASAN xidmət” mərkəzinin tikintisi davam etdirilir.

## İldən-ilə artan uğurlar

“ASAN xidmət”in ötən illər ərzində əldə etdiyi uğurlar da az olmamışdır. 2014-cü ildə “ASAN xidmət” İSO 9001:2008 idarəetmə standartı üzrə beynəlxalq sertifikata, həmin ilin yayında səmərəli xidmət nümunəsinə və dövlət-vətəndaş münasibətlərinə verdiyi töhfələrə görə “Uğur 2013” mükafatına, dekabrında isə OHSAS 18001:2007 standartı üzrə beynəlxalq dərəcəli sertifikata, 2015-ci ildə BMT-nin 2015-ci il Dövlət Xidmətləri Mükafatına layiq görülmüşdür. 2015-ci ilin martında Britaniya Əməyin Mühafizəsi Şurası tərəfindən 13 sahə üzrə keçirilən, müxtəlif dövlətlərin 700-dən çox müəssisənin müraciət etdiyi müsabiqənin “Dövlət xidmətlərinin həyata keçirilməsinin təşkilində təhlükəsiz əmək şəraitinin qurulması” sahəsi üzrə qalibi olmuşdur.

## 13 il: operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət, etik davranış, rahatlıq...

Bəli, “ASAN xidmət”dən söz düşəndə insanda yaranan ilkin təəssüratlar bunlardan ibarət olur: operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət, etik davranış və rahatlıq. Çünki indi həyatımızı asanlaşdıran, vaxt itkisinin qarşısını alan, çox nəzakətlə qarşılanıb, hörmətlə yola salındığımız, sayəsində əlavə vəsait xərcləmədiyimiz “ASAN xidmət”lərdən əvvəl vətəndaşların qarşılaşdıqları bir çox problemlər var idi. Elə “ASAN xidmət”in yaranmasının 13-cü ildönümündə onun uğurlarından, fəaliyyətini vətəndaş məmnunluğu ilə qura bilməsindən, operativliyi və şəffaflığından söhbət açarkən ondan əvvəlki illərdə vətəndaşlarımızın qarşılaşdığı problemləri də xatırlamağın yerinə düşdüyünü düşünərək həmin illərə qayıtmaq istəyirəm. Çünki dünəni unutsaq, bugünkülərin nə dəyərini bilərik, nə də qədrini.




Cəmi 13 il bundan əvvəl vətəndaş hər hansı bir sənədin əldə edilməsi üçün bəzən günlərlə yox, həftələrlə aid təşkilatların qapısında qalmalı olurdu. Gözləmək insanları, necə deyərlər, təngə gətirirdi. Qəbullara düşmək o qədər çətin idi ki, hər hansı sənədlə, xidmətlə bağlı aid məsul şəxslə görüşmək elə bir lotereya biletinin udması kimi şans idi. Yaxşı, görüşdün, axı bu işin həlli deyildi. Hələ ilkin məlumatı alır, istənilən bir sənədin düzəldilməsi, xidmətin həyata keçirilməsi üçün haradan başlamağı öyrənmiş olurdun. Burada işin hələlik bitirdi, başlayırdın digər idarələri, müəssisələri gəzməyə. Vaxt gəlib ay olurdu, lakin məsələn, bir evin, maşının qeydiyyata alınması işini həle də tamam edə bilmirdin. Çünki uzun bir yolda elə maneələrlə qarşılaşırdın ki, bəzən axıra çatdıra bilmir, həll etmək istədiyin işdən əl götürməli olurdun. Açığını deyək ki, süründürməçiliyin əsasında rüşvətxorluq halları var idi. Hansısa məsul adama məlum vəsait çatdırılmadıqda, hər dəfə müraciətində səni “başından” edir, hər dəfə yeni bəhanələr gətirirdi, təki o məbləği alanadək. İnsanlar da gəlirlərinin səviyyəsindən asılı olmayaraq həmin məbləği tapmalı, bir yerə toplamalı, sonra o işin ardınca getməli idi.

Bütün bu süründürməçilik isə vətəndaşların vaxt itkisinə səbəb olurdu. Məsələn, kəndlərdən rayon mərkəzinə hansısa bir sənəd üçün gələn adam onsuz da yarı gününü itirirdi. Sənədi ala bilməyəndə isə yenidən gəlməli olurdu ki, bu da həm vaxt, həm də vəsait itkisinə səbəb olurdu. Adam bir də kəndə-evinə qayıtmalı, səhəri gün bir də o qədər əziyyət çəkməli, həmin sənədi almaq üçün rayon mərkəzinə getməli, o da ki, düzələ, ya düzəlməyə.

Bax, 13 il əvvəl belə problemlərlə qarşılaşırdı insanlar. Həm müəyyən sənədin rüsumunu dövlətə ödəyirdi, həm də müəyyən olunmuş “rüsumları” ciblərə ödəmək məcburiyyətində qalırdı. Bu rüsumu ödəmək istəmədikdə isə süründürməçiliklə yanaşı, həm də kobudluqla, nəzakətsizliklə qarşılaşırdı. 13 il əvvəl “ASAN xidmət” yaradılanda müəyyən xidmətlər var idi ki, orada cəmləndi, təbii ki, onlar yerli aid orqanlardan alındı. Bu, heç də onların ürəyincə olmadı. Çünki yuxarıda da vurğuladığım kimi, müəyyən etdikləri “rüsumlar” əllərindən çıxarıldı. Burada qazanan vətəndaş oldu. Əslində 13 il əvvəl heç kimin ağlına belə gəlməzdi ki, zaman gələcək, belə bir xidmət fəaliyyətə başlayacaq və oraya müraciət edən kəs bu qədər məmnun qalacaq.

## “ASAN”la sosial həyatımızın asan xəritəsi

“ASAN xidmət” eyni zamanda insanın düşüncəsində “asan xəritə” anlayışını da canlandırır. Həqiqətən də artıq “ASAN”la sosial həyatımızın asan bir xəritəsi yaranmışdır. Ötən 13 ildə bu xəritə öz coğrafiyasını genişləndirərək Bakı şəhərindən rayonlarımızadək şaxələnmiş, illərlə əziyyət çəkən insanlar üçün asan bir ünvana çevrilmişdir. Maraqlısı odur ki, bu ünvan vətəndaşların qeydiyyatı üzrə rayonlaşmır. Bütün ölkə vətəndaşları üçün eynilik təşkil edir. Əvvəllər Bakıda yaşayan, lakin rayonda qeydiyyatda olan vətəndaşlar şəxsiyyət, sürücülük vəsiqəsini dəyişdirmək, yenidən almaq üçün rayona getmək məcburiyyətində qalırdısa, bunun üçün xeyli miqdarda vəsait xərcləməli-həm dövlət, həm digər “rüsumları” ödəməli olurdusa, təbii ki, bu, bir vətəndaş üçün böyük məbləğdə vəsait itkisi idi. Vəsait itkisi ilə bərabər, həm də vaxt itkisi demək idi. Hər hansı bir idarə, müəssisə və təşkilatda çalışan vətəndaş iş vaxtı rayonlara gedə bilmirdi. Bayram günlərində isə iş olmadığından bu işləri həyata keçirə bilmirdi. Bu isə müəyyən çətinliklər yaradırdı. “ASAN xidmət” modelinin yaradılması ilə bu problemlər, süni əngəllər təbii ki, aradan qaldırıldı.

Həmçinin səyyar şəkildə bölgələrdə “ASAN xidmət”in fəaliyyət göstərməsi də bu problemlərin qarşısını alır. Bu model yaradılmamışdan əvvəl vətəndaşlar sosial müavinətlərini aldıqları zaman problemlərlə rastlaşırdı. Ancaq “ASAN xidmət” və “Asan Səyyar Xidmət”-in təşkili ilə istər Bakı şəhərində, istərsə də regionlarda yaşayan əhalinin problemlərinin həlli asanlaşıb.

“ASAN xidmət”in yaratdığı mobil tətbiq vətəndaşların işini daha da asanlaşdırır. Mobil tətbiqin yaradılmasında əsas məqsəd vətəndaşlar üçün çevikliyi təmin etməklə, onların əlavə vaxt itkisinin, məsrəflərinin qarşısını almaqdır. “ASAN xidmət” mobil tətbiq vasitəsi ilə vətəndaş “ASAN xidmət” və “ASAN Kommunal” mərkəzlərində müvafiq xidmət mərkəzini seçə, zəruri sənədlərin siyahısı ilə tanış ola və növbə götürə bilir. “ASAN xidmət” mərkəzləri xidmətləri vətəndaşlara “vahid pəncərə” prinsipinə əsaslanaraq təklif edilir. Yəni vətəndaşlar eyni bir məkanda müxtəlif dövlət qurumlarının istənilən xidmətlərindən eyni vaxtda yararlana bilirlər. Bu da vətəndaşların fərdi xərclərini azaldır və vaxt itkisini aradan qaldırır. Mərkəzlərin fəaliyyətinin əsas üstünlüklərindən biri də həftənin bütün günlərində vətəndaşlara fasiləsiz xidmət göstərməsidir. Bütün bunlar isə “ASAN”a aid xəritədə birləşir. Bu xəritə isə özündə Azərbaycan vətəndaşlarını birləşdirir. Onlara asan xidmətlər göstərir. Vətəndaş bu xidmətdən necə məmnun qalmaya bilər?..

## “ASAN könüllü”sündən dövlət qulluqçusuna...

Prezident İlham Əliyev demişdir: Azərbaycanda çox müasir, dövlətə, Vətənə bağlı olan gənc nəsil yetişir və “ASAN könüllüləri”nin fəaliyyəti xüsusi əhəmiyyət daşıyır. Çünki onlar bu işlərə könüllü şəkildə qoşulurlar, özləri bu təşəbbüsü göstərirlər və işləri ilə ölkəmizin ümumi inkişafına töhfə verirlər...

Bəli, “ASAN xidmət”in yaradılması ölkəmiz, onun vətəndaşları üçün nə qədər əhəmiyyətli oldusa, “ASAN xidmət”lərdə həyata keçirilən “könüllü fəaliyyət” proqramları da bir o qədər əhəmiyyətli oldu. Hər il yüzlərlə gənc könüllü şəkildə bu mərkəzlərə gəlir, öz iş qabiliyyətlərini və intellekt səviyyələrini gücləndirirlər. Bu, tək intellekti gücləndirmək yox, həm də gələcəkdə dövlət qulluqçusu kimi fəaliyyət göstərməyə hazırlıq deməkdir. “ASAN xidmət” mərkəzlərində könüllülər bütün xidmət sahələrində növbəli şəkildə fəaliyyət göstərirlər. Bu fəaliyyətləri ilə onlar da təbii ki, vətəndaş məmnunluğunun təmin edilməsinə yardımçı olurlar.

Könüllülər müqavilə əsasında 2 ay müddətində fəaliyyət göstərir, müqavilədə nəzərdə tutulmuş öhdəlikləri 2 ay ərzində həyata keçirən könüllülərə agentliyin rəsmi sertifikat və xasiyyətnaməsi verilir. 2012-ci ildən bu günədək minlərlə gənc “ASAN könüllüləri”nə çevrilib, onlar nəinki ölkəmizin sosial həyatında, həm də ictimai həyatında fəallıq göstərir. Eyni zamanda “ASAN School”dan keçərək gələcək karyeralarını da qururlar. Bəli, ötən 13 il vətəndaşlara tək “ASAN” həyat bəxş etməyib, eyni zamanda onların övladlarının da məşğulluğu üçün böyük rol oynayıb. Bu gün ölkəmizdə yüzlərlə gənc könüllülükdən dövlət qulluqçusunadək yüksəlib, üstəlik bu qurumda müxtəlif yüksək vəzifələri icra etməkdədir. Bütün “ASAN”çılar ölkədə nüfuz sahibləridir. Çünki bu yeni modelin tətbiqini ürəklə, bacarıqla, insanların məmnunluğunu qazanmaqla həyata keçirirlər.

## Dövlət qayğısı-məmnunluğun ifadəsi

2022-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin 10 illiyi (2012-2022)” Azərbaycan Respublikasının yubiley medalının və “ASAN xidmət” ilə səmərəli əməkdaşlığa görə” Azərbaycan Respublikasının medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 697-VIQD nömrəli Qanununun tətbiqi haqqında” 27 dekabr 2022-ci il tarixli Fərmanı və “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin bir qrup əməkdaşının təltif edilməsi haqqında” 27 dekabr 2022-ci il tarixli Sərəncamı “ASAN xidmət” İşçilərinin Peşə Bayramı Gününə və ilk “ASAN xidmət” mərkəzinin fəaliyyətə başlamasının 10-cu ildönümünə böyük töhfə idi. Dövlətimizin başçısının imzaladığı bu sənədlər eyni zamanda vətəndaş məmnuniyyətini qazanmış bu quruma və onun əməkdaşlarına məmnunluğun ifadəsi idi. 29 dekabr sizin gününüzdür, əziz “ASAN”çılar. Gününüz mübarək! Ümidvarıq ki, sayənizdə qarşıdakı həyatımız bundan da asan olacaq.

***Mətanət Məmmədova***

# "Azal"a məxsus təyyarənin bilərəkdən vurulduğu təsdiqləndi

***Dünən olduğu kimi bu gün də Rusiya ziddiyyətli, ikibaşlı siyasi oyunları, ironiya ilə qarşılanan məzhəkələri ilə nəinki regionda, ümumilikdə dünya miqyasında özünü hörmətsiz vəziyyətə salıb. Təbii ki, buna görə ruslar, Rusiya xalqı günahkar deyil, nədən ki, ruslar da dünyada Rusiyanın arzulunmaz dövlət imicindən əziyyət çəkirlər.***







Rusiyalılar istənilən ölkədə kimliyini, milliyyətini açıqlamağa ehtiyat edir, çəkinirlər. Ona görə də, bu məsələdə rusları birbaşa günahlandırmaq, ittiham etmək ədalətsizlik olardı. Düzdür, dövlətin idarə edilməsi vəzifəsini üzərinə götürən şəxsləri xalqlar yetişdirirlər. Millətlər öz liderlərini formalaşdırır və onun rəhbərliyi ilə fəaliyyətlərini qurur, yaşayır, ömür sürürlər. Bu baxımdan Rusiya hakimiyyət elitasının bugünkü mövcudluğunda haradasa rusların da rolu, dəstəyi olub. Lakin nəzərə almaq lazımdır ki, bəzən fərdlər, qruplar, millətlər də seçimlərində səhvlər edirlər. Görünür, Rusiya xalqı indiki hakimiyyətin formalaşmasında göstərdikləri dəstəyə görə peşmandırlar. Lakin səhvləri düzəltmək, yanlışlığı aradan qaldırmaq gücünə malik deyillər. Çünki hakimiyyət bir əldə cəmlənib. Hansı ki, bir əldə cəmlənən hakimiyyətin bir işarəsi ilə nəinki polis, prokurorluq, hətta ordu hərəkətə keçərək istənilən qrupu məhv edər və ya insanları zindanlara ataraq ömürlük qaranlıq zirzəmilərdə çürüdər. Bununla bağlı çoxsaylı faktlar, məhv edilən talelər misal olaraq göstərmək olar. Bu azmış kimi Rusiya Ukrayna kimi azad, demokratik dövlətə basqınlar təşkil edərək şəhərləri dağıdıb, milyonlarla insanı ev-eşiyindən didərgin salıb. Müasir dünyanın gözü qarşısında Ukrayna kimi dünya sivilizasiyasına öz mədəniyyəti, dəyərləri ilə mühüm töhfələr vermiş bir dövlət məhv olmaqdadır. Aparılan danışıqlar, irəli sürülən güzəştli təkliflər də nəticə vermir. Çünki hakimiyyətin hikkəli, iddialı baş cəlladı Ukraynadan daha çox şey istəyir, məsələn, tələb edir ki, Zelenski televiziya vasitəsi ilə canlı efirdə desin: "Rusiya ordusu qarşısında dayana bilmədikləri üçün təslim olurlar". Sonra da Zelenski Ukraynanın bir sıra ərazilərini Rusiyaya verdiklərini elan etsin. Yəni, Putin açıq şəkildə Zelenskini, təbii ki, həm də Ukrayna xalqını alçaltmaq istəyir.

### Ruslar hakim elitanın zorakı əməllərini qəbul etmirlər, etiraz etmək gücünə də malik deyillər

Zelenskinin Putinin alçaldıcı şərtlərini qəbul edib-etməyəcəyini demək çətindir, hələlik isə görünən ondan ibarətdir ki, həqiqətən də ruslar hakim elitanın zorakı əməllərini qəbul etmirlər, etiraz etmək gücünə də malik deyillər. Onlar eyni soya, kökə, dinə, mədəniyyətə malik ukraynalıların faciələr içində əzilməsini istəmirlər. Şübhəsiz ki, ruslara "ana" hesab etdiklər Kiyevin dağılması, insanların bombardmanlar nəticəsində də öldürülməsi ağır gəlir. Eyni zamanda, ruslar soydaşları kimi qəbul etdikləri milyonlarla ukraynalıların xarici ölkələrdə az qala dilənçi həyatı yaşamalarından ağrıyırlar, acılar çəkirlər.

Düşünürsən ki, nədən Rusiya hakimiyyət elitası qonşu xalqlara və dövlətlərə qarşı qəddar münasibət bəsləyir? Niyə, 70 il bir bayraq altında, eyini ideologiyaya xidmət etdiyimiz, 1941-1945-ci illərdə faşizmə qarşı birgə mübarizə apardığımız və bu qanlı müharibədə milyonlarla insan qurban verdiyimiz, iqtisadi, sosial bağlılığımızın olduğu və nəhayət, hələ də bir-birimizlə geniş əlaqələr, əməkdaşlıq münasibətləri qurmağa çalışdığımız keçmiş sovetlər birliyində olmuş dövlətlərə düşmən kəsilirsən? Elə bir keçmiş sovet respublikası yoxdur ki, Rusiyanın qəddar siyasətindən əziyyət çəkməsin. Rusiya bir ölkəni işğalla susdurmağa çalışır, digərlərini hədə, təzyiq, təhdidlərlə özünə tabe etdirməyə cəhd edir, başqa birisini ölkəsində yaşayan millətinin nümayəndələrini öldürməklə, həbs etməklə və ya deportasiya etməklə sındırmağa ümid edir. O dərəcədə hikkəli və özündən mənasız yerə razıdır ki, etdiyi cinayət əməlinə görə səhvini etiraf edib üzr istəmək mədəniyyəti də göstərmir. Dəfələrlə Kremlə yaxın televiziyalarda, hakimiyyətin nəzarətində olan sosial şəbəkə hesablarında Azərbaycana qarşı müxtəlif həqiqəti əks etdirməyən informasiyalar yayırlar. Rusiyanın müvafiq orqanları tərəfindən məqsədli şəkildə hibrid təhdidlərlə ölkəmizin imicinə zərbə vurmağa, daxildə çaşqınlıq yaratmağa cəhdlər göstərilir.



25 dekabr 2024-cü ildə Bakı–Qroznı reysini yerinə yetirərkən Azərbaycan Hava Yollarına (AZAL) məxsus "Embraer 190" tipli təyyarənin Rusiya tərəfindən vurulması və bu qeyri-insani davranışına görə hələ də Azərbaycan xalqından üzr istənilib, kompensasiya ödənilməməsi, günahkarların cəzalandırılmaması Rusiyanın özbaşınalığından və beynəlxalq hüquqa hörmətsiz davranışını göstərir. İlkin istintaqla sübuta yetirilib ki, Qroznıya yaxınlaşarkən təyyarə Rusiyanın "Pantsir-S" hava hücumundan müdafiə sistemi tərəfindən hücuma məruz qalıb. Bundan əlavə, Rusiya tərəfinin radioelektron mübarizə vasitələrindən istifadəsi nəticəsində Azərbaycan təyyarəsinin rabitə sistemi tamamilə iflic olub. Bu səbəbdən hava gəmisinin bortu Rusiyanın hava məkanında radarlardan itib.

Təyyarədə ümumilikdə 67 nəfər - 42 nəfər Azərbaycan (37 sərnişin, 5 ekipaj üzvü), 16 nəfər Rusiya, 6 nəfər Qazaxıstan, 3 nəfər isə Qırğızıstan vətəndaşı olub. Qəza nəticəsində 38 nəfər həlak olub, 29 nəfər sağ qalıb. Aviaqəza zamanı hava gəmisinin komandiri İqor Kşnyakin, ikinci pilot Aleksandr Kalyaninov və stüardessa Hökumə Əliyeva həyatını itirib.Qəza zamanı sərnişinlərin xilas olunmasında ekipaj üzvlərinin peşəkarlığı və fədakarlığı xüsusi rol oynayıb.

### "Hər şey yaxşı olacaq" deyirdi...

Hadisə nəticəsində təqaüdə çıxmasına cəmi iki ay qalan hava gəmisinin kapitanı İqor Kşnyakin, bir il idi pilot kimi fəaliyyət göstərən köməkçi pilot Aleksandr Kalyaninov, həmçinin sərnişinlərə son ana qədər ümid verən "Hər şey yaxşı olacaq" sözləri ilə yadda qalan təyyarə bələdçisi Hökumə Əliyeva həlak olublar. Onlar göstərdikləri misilsiz fədakarlığa görə ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görülüblər. Qəza nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri alan digər ekipaj üzvləri – stüard Zülfiqar Əsədov və stüardessa Aydan Rəhimli isə göstərdikləri şücaətə görə 1-ci dərəcəli "Rəşadət" ordeni ilə təltif olunublar.

Hadisədən sonra təyyarə qəzasının səbəblərinin araşdırılması məqsədilə Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun sədrliyi ilə dövlət komissiyası yaradılıb. Eyni zamanda Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin tapşırığı ilə də Dövlət Komissiyası formalaşdırılıb. Bundan başqa, Azərbaycan və Qazaxıstan ombudsmanları tərəfindən birgə işçi qrupu yaradılıb.

Beynəlxalq Mülki Aviasiya Təşkilatının Beynəlxalq Mülki Aviasiya haqqında Çikaqo Konvensiyasının 13 saylı Əlavəsinin tələblərinə uyğun aparılan araşdırmanın ilkin hesabatında bildirilir ki, Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğrayan "Azərbaycan Hava Yolları" QSC-yə məxsus "Embraer 190" tipli sərnişin təyyarəsinin qalıqlarının kor zədələrində hava gəmisinə məxsus olmayan kənar obyektlər aşkarlanıb. Hesabata əsasən, aşkarlanan kənar obyektlər götürülüb və həmin kənar obyektlərin foto şəkilləri ilkin hesabat mətnində ictimaiyyətə təqdim edilib.Bildirilib ki, gələcəkdə aşkar olunmuş kənar obyektlərin dəqiq mənsubiyyətinin müəyyənləşdirilməsi məqsədilə əlavə ekspertizaların keçirilməsi planlaşdırılıb.

Sərnişin təyyarəsinə qarşı törədilən vəhşiliyin ildönümü ilə bağlı Qazaxıstan Nəqliyyat Nazirliyinin açıqlamasında deyilir ki, "Embraer 190" tipli Azərbaycan Hava Yolları aviaşirkətinə məxsus, Bakı–Qroznı reysini yerinə yetirən və Aktau yaxınlığında qəzaya uğrayan hava gəmisinin aviaqəzasının səbəblərinin araşdırılmasının yekun başaçatma müddəti bütün təyin olunmuş tədqiqatların və işlərin tamamlanma vaxtından asılıdır: "ICAO-nun 13 saylı Əlavəsinin müddəalarına uyğun olaraq, aviasiya hadisəsinin araşdırılmasının yeganə məqsədi gələcəkdə oxşar halların qarşısını almaqdır. Nəqliyyat Nazirliyinin yaratdığı Aviasiya Hadisələrinin Araşdırılması Komissiyasının apardığı araşdırma ilə yanaşı, Qazaxıstan hüquq-mühafizə orqanlarında cinayət işi üzrə istintaq da aparılır".

### "Aralıq bəyanat sənədində daxili partlayış faktını istisna edən oksigen balonlarının zədələnməməsi faktı vurğulanır"

Qazaxıstan Nəqliyyat Nazirliyinin açıqlamasında o da qeyd edilir ki, Aviasiya hadisəsinin araşdırılmasının yekun başaçatma müddəti bütün təyin olunmuş tədqiqatların və işlərin tamamlanma vaxtından asılıdır: "Hadisənin səbəbləri və ya ona təsir edən amillər, eləcə də uçuşların təhlükəsizliyi ilə bağlı tövsiyələr yekun hesabatda əks olunacaq".

Azərbaycan tərəfi "AZAL"-a məxsus hava gəmisinin qəzasının ildönümü ilə bağlı Qazaxıstan tərəfinin nəşr etdiyi aralıq bəyanat ilə əlaqədar məlumat yayıb. Məlumatda "Embraer 190-100 IGW" tipli sərnişin təyyarəsinin qəzası ilə bağlı Beynəlxalq Mülki Aviasiya haqqında Çikaqo Konvensiyasının 13 saylı Əlavəsi əsasında araşdırmanın davam etidirildiyi bildirilib. Qeyd olunub ki, araşdırma Qazaxıstanın Nəqliyyat Nazirliyi tərəfindən Beynəlxalq Mülki Aviasiya Təşkilatı (ICAO), Azərbaycan, Braziliya və Rusiya nümayəndələrinin iştirakı ilə həyata keçirilir. Bu araşdırmadan əlavə, üç ölkənin (Azərbaycan, Qazaxıstan və Rusiya) istintaq orqanları öz səlahiyyətləri çərçivəsində qəza ilə bağlı cinayət işinin istintaqını da həyata keçirir. ICAO tələblərinə uyğun olaraq, Qazaxıstan bu il fevralın 4-də ilkin hesabat nəşr edib. İlkin hesabat yalnız aşkar edilmiş faktları özündə əks etdirib və hər hansı təhlil, habelə nəticələri ehtiva etməyib.

Çikaqo Konvensiyası çərçivəsində həyata keçirilən araşdırmanın nəticələrini özündə ehtiva etməli olan yekun hesabatın tamamlanması qəzanın ildönümü tarixinə mümkün olmayıb. Məhz buna görə Qazaxıstan ICAO-nun tələblərinə uyğun olaraq aralıq bəyanatı ictimaiyyətə təqdim edib.

Aralıq bəyanat sənədində daxili partlayış faktını istisna edən oksigen balonlarının zədələnməməsi faktı vurğulanıb. Habelə hava gəmisinə zərər vurmuş partlayıcı qurğunun hissəcikləri olan kənar metal obyektlərin silah sisteminə aid olması ilə bağlı məlumat qeyd olunub. Bununla belə həmin silah sisteminin modeli barəsində məlumat aralıq bəyanat mətnində qeyd edilməyib. Xatırladaq ki, həmin silah sisteminin Rusiya Müdafiə Nazirliyinin hava hücumundan müdafiə qüvvələrinə aid olması həmin ölkənin Prezidentinin siyasi bəyanatında artıq qeyd olunub.

"Azal" a məxsus təyyarənin vurulması Rusiyanın qəddar və qeyri –insani davranışının göstəricisidir. Bu cinayətin cəzasız qalması qəbuledilməzdir. Rusiya dövlətinin kompensasiya ödəməməsi və təyyarəni bilərəkdən vuran canilərin hələ də azadlıqda olmaları beynəlxalq hüquqa meydan oxumaq deməkdir. Belə dövlətləri sonu heç zaman yaxşı olmur. Nümunə olaraq, Serbiyanı, İraqı, Liviyanı, nəhayət faşizmin bir zaman meydan suladığı Hitler Almaniyasını göstərmək olar.

**İLHAM ƏLİYEV**

# Biomüxtəliflik yoxdursa, həyat yoxdur



***Biomüxtəliflik, yəni bütün növlərdən olan canlı orqanizmlər arasındakı dəyişkənlik, Yer kürəsindəki həyatın əsasını təşkil edir. Buraya növlər daxilində, növlər arasında və ekosistemlər arasında müxtəliflik daxildir ki, bu da bitkilərin, heyvanların, mikroorqanizmlərin genetik tərkibini və ekosistemlərin mürəkkəbliyini təmsil edir.***

Sağlam mühit o zaman yaranır ki, təmiz hava, təmiz su, təbii dərmanlar və qida təhlükəsizliyi kimi vacib xidmətlər göstərən ekosistemlər olsun. Bu ekosistemlər həmçinin xəstəlikləri tənzimləyir və iqlimin sabitləşməsinə kömək edir. Məsələn, meşələr hər il 2,6 milyard tondan çox CO2 udur və iqlim tənzimlənməsinə töhfə verir və çirklənmə ilə əlaqəli xəstəliklərin yayılma hallarını azaldır. Lakin biomüxtəlifliyin itirilməsi görünməmiş sürətlə sürətlənir, təxminən 1 milyon növ məhv olmaq riski altındadır ki, bu da bu həyatımızı hədələyir və qlobal miqyasda ictimai sağlamlıq risklərini artırır.

İnsanlar bir çox cəhətdən biomüxtəliflikdən asılıdırlar. Biz sağlamlığımız üçün lazım olan ekosistem resurslarından, məsələn, şirin su, qida və yanacaq mənbələrindən, təmiz havadan asılıyıq. Ekosistem artıq cəmiyyətin ehtiyaclarını ödəmədikdə, bu biomüxtəlifliyin itirilməsi deməkdir və sağlamlığa ciddi təsir göstərə bilər. Ekosistemlərdəki dəyişikliklər iqtisadi problemlərə, yerli miqrasiyaya təsir göstərə və hətta siyasi münaqişələrə səbəb ola bilər.

Yer kürəsinin biomüxtəlifliyi ətraflı öyrənildikcə əhəmiyyətli tibbi və farmakoloji kəşflər edilir. Mikroorqanizmlərin, flora və faunanın bioloji müxtəlifliyi bioloji, səhiyyə və farmakoloji elmlər üçün geniş fayda təmin edir. O, həmçinin ənənəvi dərmanların mənbəyidir. Biomüxtəlifliyin itirilməsi, xüsusən də kənd təsərrüfatı, balıqçılıq və səhiyyə kimi sektorlarda dərin iqtisadi nəticələrə də malikdir. Biomüxtəlifliyin itirilməsinin qlobal iqtisadi təsirinin ildə 10 trilyon ABŞ dolları təşkil etdiyi təxmin edilir, o cümlədən xəstəliklərin ötürülməsinin artmasından yaranan səhiyyə xərcləri və tozlandırıcıların azalmasından yaranan kənd təsərrüfatı itkiləri da var. Məsələn, ildə 235 milyard ABŞ dollarından çox dəyərində bitkiləri tozlandırmaqdan məsul olan arı populyasiyalarının azalması qlobal ərzaq təhlükəsizliyini və qidalanmanı təhlükə altına alır. Biomüxtəlifliyin itirilməsi sürətlə baş verir və son hesablamalar göstərir ki, canlı növlərin məhv olması bizə çox baha başa gələcək. Meşələrin qırılması, yaşayış yerlərinin tərk edilməsi, urbanizasiya, insan faktorundan qaynaqlanan təhlükələr, iqlim dəyişikliyi təbiətə böyük zərərlər verir. Bu itki tozlanma, torpaq münbitliyi və suyun təmizlənməsi də daxil olmaqla vacib ekosistem xidmətləri deməkdir. Məsələn, şirin suyu süzən bataqlıqların deqradasiyası 1970-ci ildən bəri qlobal bataqlıq örtüyünün 35% azalmasına səbəb olub, su ilə keçən xəstəlikləri artırıb və 2 milyarddan çox insanın suya çıxışını azaldıb. Dəniz biomüxtəlifliyinə atmosferdəki karbon səviyyələri ilə əlaqəli okean turşuluğu təsir göstərir. Bir sözlə, iqlimdəki uzunmüddətli dəyişikliklər ekosistemlərin canlılığına və sağlamlığına təsir göstərir, bitkilərin, patogenlərin, heyvanların və hətta insan məskunlaşmalarının paylanmasında dəyişikliklərə təsir göstərir.

Meşələr və bataqlıqlar kimi ekosistemlər təbii karbon uducuları kimi çıxış edir, CO2-ni udur və qlobal temperaturu tənzimləyir. Bu ekosistemlərin məhv edilməsi iqlim dəyişikliyini sürətləndirir, istilik dalğalarının, daşqınların və istilik stressi, qidalanmanın olmaması və malyariya və denqe kimi vektorlar tərəfindən ötürülən xəstəliklərin yayılması da daxil olmaqla digər iqlimlə əlaqəli sağlamlıq risklərinin artmasına səbəb olur.

Unutmayaq ki, qlobal qida bitkilərinin 75%-dən çoxu tozlandırıcılardan asılıdır və bu da qlobal kənd təsərrüfatı məhsullarının istehsalına ildə 235-577 milyard ABŞ dolları qazandırır. Müasir dərmanların 50%-dən çoxu təbii mənbələrdən, o cümlədən göbələklərdən alınan antibiotiklərdən və bitki birləşmələrindən alınan ağrıkəsicilərdən əldə edilir. Meşələr quru biomüxtəlifliyinin 80%-ni ehtiva edir, o cümlədən hər il təxminən 2,6 milyard ton karbon qazını udur və iqlim dəyişikliyinin qarşısını almağa kömək edir.

***Lalə Mehralı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "ekologiya və ətraf mühitin mühafizəsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# Qərbi Azərbaycana qayıdış günü uzaqda deyil



Dünya həqiqətən də ədalətli, hüququn aliliyinə hörmət edən dünya deyil. Əgər az da olsa ədalətli olsa idi, Azərbaycan torpaqlarının işğal dövründə ermənilərin törətdikləri vəhşiliklərə ən azı indiki dinc dövrdə münasibət bildirər, erməniləri ittiham edən bəyanat qəbul edərdilər. Ermən terror toplumu Azərbaycan ərazilərin də dünya əhəmiyyətli abidələri, memarlıq nümunələrini məhv ediblər. Cəbrayılda orta əsrlərə aid 11 və 15 tağlı Xudafərin körpüləri və Tunc dövrünə aid Niftalı kurqanları, Kəlbəcərdə orta əsrlərə aid Gəncəsər və Xudavanq monastırları, Ağdamda XIV əsrə aid Qutlu Musa oğlu türbəsi və Tunc dövrünə aid Üzərliktəpə yaşayış massivi, Xocavənddə Paleolit dövrünə aid Azıx və Tağlar mağarası, Xocalıda Tunc və Dəmir dövrünə aid kurqanlar erməni vəhşiliyinin qurbanı olub. Ermənilərlə əməkdaşlıq edib erməni vəhşi toplumu Füzuli rayonunda Hacı Ələkbər məscidi, Dədəli, Merdinli, Gecəgözlü, Yuxarı Veysəlli kənd məscidləri, Cəbrayıl rayonunda Süleymanlı və Papı kənd məscidləri, Qubadlı rayonunda Məmər və Yusifbəyli kənd məscidləri, Zəngilan rayonunda Zəngilan şəhər məscidi, Malatkeşin və Zəngilan kənd məscidləri, ümumilikdə 67 məsciddən 65-ni tamamilə məhv edib, digər 2-ni isə müxtəlif iyrənc məqsədlər üçün istifadə edib. Şuşanın işğalı nəticəsində azərbaycanlıların tarixi izlərini silmək məqsədilə vandallar 600 yaxın tarixi memarlıq abidəsini, o cümlədən Pənahəli xanın sarayını, Yuxarı Gövhər ağa məscidini, Aşağı Gövhər ağa məscidi, Xurşidbanu Natəvanın evini, Molla Pənah Vaqifin məqbərəsini yerlə-yeksan etmiş, 7 məktəbəqədər uşaq müəssisəsini, 22 ümumtəhsil məktəbini, mədəni-maarif, kənd təsərrüfatı texnikumlarını, orta ixtisas musiqi məktəbini, 8 mədəniyyət evinin, 22 klubu, 31 kitabxananı, 2 kinoteatrı, 8 muzeyi, o cümlədən Şuşa Tarix Muzeyi, Azərbaycan Xalça Muzeyinin filialı və xalq tətbiqi sənəti muzeyi, Qarabağ dövlət tarix muzeyi, turist bazasını, Qafqazda yeganə Şərq musiqi alətləri fabrikini dağıtmış, buradakı nadir sənət incilərini talamış və məhv etmişlər.

### Erməni vandalizmi insanlığa ləkədir

Ermənistanın mədəniyyət obyektlərinə, dini-mədəni irsimizə qarşı bu cür vandalizm aktları bir çox beynəlxalq sənədlərə, o cümlədən 1954-cü ildə Haaqada qəbul edilmiş "Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında Konvensiya"nın, "Arxeoloji irsin qorunması haqqında" Avropa Konvensiyasının, "Ümumdünya mədəni və təbii irsinin mühafizəsi haqqında Konvensiya"nın müddəalarını kobud şəkildə pozmuşdur. Ağdamın Əbdal və Gülablı kəndlərində "Pənah xan İmarəti" məscidlər kompleksi, Ağdam rayonunda Uğurlu bəy məzarlığı və Qurban Pirimovun evmuzeyi, Xocalıda XIV əsrə aid kurqanlar, Başlıbel və Otaqlı kəndlərində məscidlər tamamilə viran edilib. Vəhşi toplum qəbirstanlıqlara qarşı da vandalizm aktları törətməkdən çəkinməyib. Azərbaycan ərazilərində qəbirlərin üstlərinin açılması və dəyərli əşyaların qarət edilməsi, qəbir daşlarının götürülərək yolların çəkilməsində, özləri üçün tikdikləri həyətlərin döşənməsi hallar həyata keçirilib. Kəlbəcərin Moz, Keşdağ və Yuxarı Ayrım kəndlərində qədim məzarlıqlar, Zəngilanın Qıraq Muşlan, Malatkeşin, Babaylı və İkinci Ağalı kəndlərində məscidlər, Zəngilanın Babaylı və Şərifan, Cahangirbəyli kəndlərində orta əsr məzarlıqları, Qubadlı rayonunda Qayalı və Məmər kəndlərində qədim məzarlıqlar və məscid, Laçının Qarıqışlaq kəndində məscid və Zabux kəndində qədim məzarlıq, Cəbrayılın Çələbilər kəndində məscid kompleksi və Xubyarlı kəndində qədim məzarlıq, Füzuli şəhərində məscidlər və Qoçəhmədli, Mərdmli, Qarğabazar kəndlərində, Xocavəndin məzarlıqları, Ağhullu, Kuropatkina, Düdükçü və Salakatin kəndləri və Xocavəndin Tuğ kəndində qədim məzarlıq, Tərtərin Ümüdlü kəndində qədim hamamlar, Sədərəkin Kərki kəndində məzarlıq dağıdılmış, yandırılmış və talan edilmişdir. Kəlbəcər rayonunda qədim sikkələr, qızıl və gümüş işləmələr, nadir və qiymətsiz daşlar, xalça və digər əl işlərindən ibarət unikal kolleksiyaya malik Tarix Muzeyi, Şuşa muzeyləri, Laçın Tarix Muzeyi, Ağdam Tarix və Qida Muzeyi dağıdılmış, talan edilmiş və sərgi nümunələri digər dövlətlərdə satışa çıxarılmışdır.

### Ermənilər abidələrin arxitektur detallarının dəyişdirilməsinə cəhd edib

Azərbaycana məxsus tarixi abidələrin, memarlıq nümunələrinin görünüşünü dəyişmək üçün ermənilərin vəhşi toplumu müxtəlif iyrənc metodlardan istifadə edib. Buna misal olaraq, Laçın şəhərində erməni kilsəsinin tikintisi, uşaq musiqi məktəbi, kitabxana, dərnək və infrastruktur vasitələrin dağıdılması ilə Xocalı hava limanındakı uçuş zolağının genişləndirilməsini göstərmək olar. Digər istifadə olunan təcrübə müxtəlif abidələrin arxitektur detallarının dəyişdirilməsidir, məsələn, Şuşa şəhərində Saatlı məscid və Xanlıq Muxtar karvansaraları, abidələrin Azərbaycan-İslam elementləri və ərəb dilində yazıların erməni xaçı və yazısı ilə əvəzlənməsi buna misaldır. Ermənistan Xocavənd rayonunda Azıx mağarasında 2003-cü ildən və Ağdam şəhərinə yaxın ərazilərdə 2005-ci ilin martından "arxeoloji qazıntılar" həyata keçirib. Qazıntılar vəhşicəsinə, kortəbii formada aparılıb və bu zaman Azərbaycanın tarixi memarlıq nümunələrinin, arxitektura formasının dəyişdirilməsinə uğursuz cəhdlər göstərilib.

Araşdırmalarla sübuta yetirilir ki, erməni vəhşi toplumu tarixi Azərbaycan diyarı olan Qərbi Azərbaycan ərazilərində də xalqımıza məxsus irsi də dağıdıb, yer üzündən silib. 1915-ci ildə Zəngəzur və İrəvan quberniyasının ərazisində 491 məscid fəaliyyət göstərib. İrəvan quberniyasında məscidlərin artma dinamikası 1904-cü ildə 201, 1911-ci ildə 342, 1915-ci ildə 382 şəklində olub. Bu artım dinamikası bölgədə azərbaycanlıların sürətlə artmasından və bu ərazidə müsəlman ruhanilərinin güclü mövqeyindən xəbər verir. Məscidin filialları Zəngəzurun Şəki, Vaqudi, Mərdhuz, Qarraq, Saldaş, Karkyal, Ağbəs, Ağbağ, Hacıəmi, Ballıqaya, Karkas, Çaralı, Xardcmaqlı, Dəstəkərd, Qalacıq, Mollalar, Təzə Kilsə, Nərcan və digər kəndlərində fəaliyyət göstərib. İrəvan şəhərinin özündə XX əsrin əvvəlinə kimi Qədim Şəhər, Çame, Hacı Novruzəlibəy, Hacı İmamverdibəy, Mirzə Səfibəy, Hacı Cəfərbəy məscidləri fəaliyyət göstərib. İrəvanın Camə məscidi kompleksində iri mədrəsə binası da mövcud olub. Bu tarixi abidələrin əksəriyyəti ermənilər tərəfindən vəhşicəsinə məhv edilib, yaxud mənşəyi dəyişdirilib.

### Tarixi yurd yerlərimiz olan Qərbi Azərbaycana da qayıdacağıq

Ermənilər tərəfindən dağıdılmış arxitektur abidələri arasında XVIII əsrin ikinci yarısında Qara Seyid tərəfindən İrəvanda tikilmiş Hacı Novruzəli bəy məscidi və Səfəvi və Qacar dövrünün qiymətli saray arxitektura nümunəsi olan "Sərdar sarayı" və ya "Xan sarayı" saraylar kompleksidir. İrəvanın Sərdar məscidi (bəzən Abbas Mirzə məscidi adlandırılır) də sistemli dağıntıya məruz qalmış və 2014-cü ildə tamamilə məhv edilmişdir. Ermənistanda Cəfərabad (ad Argavand adı ilə dəyişdirilmişdir) kəndində 1413-cü ildə tikilmiş Əmir Saad mavzoleyi də dağıdılmış abidələr sırasındadır. Mavzoleyin Azərbaycana məxsusluğu əlamətinin aradan 8 qaldırılması üçün üzərində ərəb dilində yazılmış "Pir Budaq xanın hakimiyyəti dövründə Əmir Pir Hüseynin əmri ilə tikilmişdir" sözləri silinərək, abidənin adı "Türkmən Əmirləri ailəsinin mavzoleyi" adlandırılmışdır. Həmçinin, Ermənistanda olan qədim və yeni Azərbaycana məxsus qəbirstanlıqlar məhv edilmişdir. İşğal edilmiş ərazilərdə olduğu kimi, Ermənistanda olan Azərbaycanın tarixi yerlərində toponimlər orijinal xarakterinin dəyişdirilməsi məqsədilə dəyişdirilmişdir. Düşmənə döyüş meydanında vurulan sarsıdıcı zərbə işğaldan azad edilən ərazilərin bərpası ilə davam etdirilir. Təmir, tikinti, bərpa işlərindən sonra insanlar öz doğma yurdlarına qayıdırlar. Qərbi Azərbaycana qayıdış isə uzaqda deyil. Bu bizim məqsədimiz, hədəfimiz və milli siyasətimizdir. Əminəm ki, Fateh Sərkərdə, Prezident İlham Əliyevin müdrik, uzaqgörən fenomen siyasəti ilə hər bir uğura imza atacağıq.

***İLHAM ƏLİYEV***

SON SƏHİFƏ
SƏS
27 dekabr
2025-ci il

# Mənzil qeydiyyatına düşmək prosesi necə aparılır ?



## Ekspert mühüm məqamlara aydınlıq gətirdi

***"Mənzil məsələləri gündəlik həyatda çox rast gəlinən hüquqi mövzulardan biridir. Xüsusilə bir mülkiyyətdə bir neçə şəxsin qeydiyyatda olması mənzil sahibi üçün sonradan çətinliklər yarada bilər". Bu sözləri SİA-ya açıqlamasında əmlak üzrə ekspert Ramil Qasımzadə bildirib. Onun sözlərinə görə, belə vəziyyət satış, ipoteka, mülkiyyət hüquqlarının təhvil verilməsi və ya dövlət qurumları ilə əməliyyatlarda problemlərə səbəb ola bilər.***

Digər şəxslərin qeydiyyatdan çıxarılması prosesi hüquqi qaydalarla tənzimlənir və bir neçə mərhələdən ibarətdir. İlk olaraq, qeydiyyatdan çıxarılmasını istədiyiniz şəxslərin adının olduğu sənədlər və mənzilə dair mülkiyyət sənədləri toplanmalıdır. Bu sənədlər pasport və ya şəxsiyyət vəsiqəsi, mülkiyyət hüququnu təsdiq edən sənəd və yaşayış yerinin qeydiyyatı barədə arayışdan ibarət olur. Daha sonra, müraciət yerli qeydiyyat şöbəsinə və ya müvafiq dövlət qurumuna təqdim olunur. Müraciət ərizəsi yazılır və sənədlər əlavə edilir. Qeydiyyatdan çıxarılma üçün hüquqi əsasların olub-olmaması araşdırılır. Əgər şəxs artıq mənzildə yaşamırsa və ya mülkiyyət sahibi razılıq veribsə, bu əsas kimi qəbul olunur.

Bütün sənədlər və məlumatlar yoxlanıldıqdan sonra aidiyyəti orqan qeydiyyatdan çıxarılma barədə qərar verir. Qərar qəbul edildikdən sonra şəxsin qeydiyyatı rəsmi olaraq silinir və mülkiyyət sahibi daha sərbəst hərəkət edə bilir. Sonda bu dəyişiklik dövlət qeydiyyat sisteminə daxil edilir və şəxsin həmin ünvanda qeydiyyatı artıq mövcud sayılmır.

Qeyd etmək lazımdır ki, hər bir halda qeydiyyatdan çıxarılma prosesi hüquqi qaydalar çərçivəsində aparılmalıdır. Mülkiyyət sahibi hüquqlarını qorumaq və gələcəkdə yaranacaq problemlərin qarşısını almaq üçün bu proseduru diqqətlə yerinə yetirməlidir".

***Günay Hacıyeva***

"SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744
7. Bakmətbuat MMC 0502644010

1 nüsxə 1 aylığı 8 AZN
6 aylıq 48 AZN
1 illik 96 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Virus daha geniş miqyasda yayılacaq - XƏBƏRDARLIQ

***Pediatr Vaqif Qarayev bildirib ki, bəzi şəxslər guya iddia edir ki, uşaqlar arasında qəsdən xəstəlik yayırlar. Milli.Az xəbər verir ki, mütəxəssis virusların qəsdən yayılması ilə bağlı səsləndirilən fikirləri əsassız və elmi əsasdan kənar adlandırıb.***



"Ciddisiniz? Hər il payız-qış mövsümündə respirator viruslar baş qaldırmırmı? İndi tutaq ki, kənardan virus gətirmək mümkündür, bəs sovet dövründə bundan da ağır epidemiyalar yaşanıb, onda kim yayırdı bu virusları?" - deyə o bildirib. V.Qarayev qeyd edib ki, belə əsassız iddialar yaymaq əvəzinə, valideynlər övladlarını qorumağa çalışmalıdır: "Uşaq xəstədirsə, təcrid edin, gigiyenik qaydalara riayət edin, maskadan istifadə edin. İndi hamı uşaqlarını bayram tədbirlərinə aparacaq və nəticədə virus daha geniş miqyasda yayılacaq. Deməli, virusu özümüz yayırıq".

# "Real" 33 yaşlı futbolçuya qapını göstərir...

***Madrid "Real"ı mövsümün sonunda David Alaba ilə yollarını ayıracaq. Nüfuzlu "Marca" nəşrinin yazdığına görə, avstriyalı müdafiəçinin gələn ilin yayında başa çatacaq müqaviləsi yenilənməyəcək.***

33 yaşlı furbolçu 2021-ci ildən "Real"da çıxış edir. O, bu mövsüm cəmi 4 oyunda iştirak edib. Ümumilikdə isə "Real"da 120 oyuna çıxan futbolçu 5 qol vurub, 9 qol ötürməsi edib.

"Transfermarkt"dakı məlumata görə, Alabanın bazar dəyəri 4 milyon avrodur.




***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3000**